Azərbaycan Respublikası Təhsil Nazirliyi

Bakı Dövlət Universiteti

Bakalavr təhsil pilləsi üçün

# EKOLOGİYA HÜQUQU VƏ TƏBİƏTDƏN İSTİFADƏNİN HÜQUQİ ƏSASLARI

KURSUNUN

## P R O Q R A M I

İxtisas: Yer quruluşu, torpaq və şəhər kadastrı

BAKI - 2017

Tərtib edənlər: 1. BDU-nun əmək və ekologiya kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru,professor Qasımov Alış Məmiş oğlu
2. Hüquq üzrə elmlər doktoru, dosent Hüseynov Əbülfəz İbrahim oğlu
3. Baş müəllim Əliyev Mahir Oqtay oğlu
4. Müəllim Bayramova Aygün Asifovna

Elmi redaktor: Qasımov Alış Məmiş oğlu
BDU-nun əmək və ekologiya kafedrasının müdiri hüquq üzrə elmlər doktoru,professor

Rəyçilər: Məmmədov Zaur Əlirza oğlu
hüquq üzrə fəlsəfə doktoru

Əliyev Mayis Nəbi oğlu
hüquq üzrə elmlər doktoru, professor

# İZAHAT VƏRƏQƏSİ

Kursun tədrisinə 60 saat (30 saat mühazirə, 30 saat məşğələ) ayrılmışdır.

Müasir dövrdə təbiət və cəmiyyət arasında nəinki milli, regional, habelə qlobal müstəvidə tarazılığın və harmoniyanın qorunub saxlanması dövlətlər və bütövlükdə bəşəriyyət qarşısında duran vacib məsələlərdən biridir.

Azərbaycan Respublikasının Konstitusiyasının 39-cu maddəsinin birinci hissəsinə əsasən hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Həmin maddənin ikinci hissəsinə əsasən hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

Təbiətin qorunması hər bir insanın əsas vəzifələrindən biridir. Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsinin üçüncü hissəsində göstərilir ki, heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.

Hüquqi ekoloji təhsil təbiətin mühafizəsi və ətraf mühitin qorunması ilə bağlı hüquqi tənzimlənmə sahəsində dövlətin fəaliyyət istiqamətlərindən biridir. Bu fəaliyyət cəmiyyətdə və hər bir insanda, xüsusən də gələcəkdə hüquqşünas kimi fəaliyyət göstərəcək tələbələrdə ekoloji biliklərin, ekoloji mədəniyyətin və ekoloji tərbiyənin formalaşmasına yönəlmişdir.

Azərbaycan hüquq sisteminin tərkib hissəsi kimi ekologiya hüququ insanların gündəlik maraqları, mənafeləri və tələbatları ilə sıx bağlıdır. Bu baxımdan ekologiya hüququ sahəsində insanın (vətəndaşın, xarici vətəndaşın, əcnəbinin), hüquqi şəxsin və dövlətin üzərinə mühüm

vəzifələr qoyulur. Hər bir hüquqşünas ekoloji problemlərin həllinə öz töhfəsini verməlidir.

Təbiətin mühafizəsi dövlətin əsas vəzifələrindən biridir. Bu isə ali təhsil müəssisələrində ekoloji qanunvericiliyin öyrənilməsinin vacibliyini bildirir.

Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsasları fənninin tədrisi tələbələr tərəfindən milli, regional və beynəlxalq təbiəti mühafizə qanunvericiliyinin, ekologiya hüququnun prinsipləri, kateqoriyaları və institutlarının mənimsənilməsinə səbəb olacaq, bu sahədə normativ-hüquqi aktlarla işləmək bacarığını, ekoloji problemlərlə bağlı qərarların həlli qabiliyyətini formalaşdıracaqdır. Eyni zamanda bu fənnin tədrisi tələbələrdə milli hüquq sisteminin əsas elementlərindən biri olan hüquqi şüurun,xüsusən ekoloji hüquqi şüurun formalaşması və onun səviyyəsinin artırılmasına kömək edəcəkdir.

Ekoloji biliklərin mənimsənilməsi nəticəsində tələbələr müasir dövrdə ətraf mühitin əsas milli, regional və qlobal problemlərinin praktik həllinə öz töhfəsini verəcəkdir.

Fənnin tədrisində tələbələr

**bilməlidir:**

-Azərbaycan Respublikası ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsasları üzrə qanunvericiliyinin normalarını;

-Azərbaycan Respublikasının tərəfdar çıxdığı və ratifikasiya etdiyi hüquq normalarını.

**bacarmalıdır**

-hüquqi aktları təfsir və tətbiq etməyi;

-faktları və halları hüquqi cəhətdən düzgün tövsif etməyi;

-hüquqi xarakterli sənədləri hazırlamağı,normativ aktların hüquqi ekspertizasını həyata keçirməyi,ixtisaslı hüquqi məsləhətlər və rəylər verməyi;

-hüquqi qərarlar qəbul etməyi və digər hüquqi hərəkətləri həyata keçirməyi.

**-yiyələnməlidir**

- Azərbaycan Respublikasının ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsasları üzrə qanunvericiliyikdə istifadə olunan terminləri və əsas anlayışları;

-peşə fəaliyyətinin müvafiq sahələrində hüquq normalarının reallaşdırılması üçün xüsusi əhəmiyyət kəsb edən normativ və faktik informasiyanın əldə edilməsi metodlarını; həmçinin məhkəmə təcrübəsinin təhlili və ümumiləşdirilməsi metodlarını;

-peşə fəaliyyətini həyata keçirmək vərdişlərini.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Mühazirə | Məşğələ | Cəmi |
|---|---|---|---|---|
| **1** | Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının predmeti, metodu, sistemi və mənbələri | 2 | 2 | 4 |
| **2** | Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının prinsipləri | 2 | 2 | 4 |
| **3** | Müasir dövrdə cəmiyyətin və təbiətin qarşılıqlı təsir formaları və ekologiya sahəsində hüquq münasibətləri | 2 | 2 | 4 |
| **4** | Təbiətdən istifadə və təbiət obyektləri üzərində mülkiyyət hüququ | 2 | 2 | 4 |
| **5** | İnsanın ekoloji-hüquqi statusu. Sağlam ətraf mühitdə yaşamaq hüququ | 2 | 2 | 4 |
| **6** | Ekoloji-hüquqi məsuliyyət | 4 | 4 | 8 |
| **7** | Əhalinin və ərazinin ekoloji təhlükəsizliyinin hüquqi tənzimlənməsi | 2 | 2 | 4 |
| **8** | Torpaqdan və yerin təkindən istifadənin ekoloji-hüquqi rejimi | 2 | 2 | 4 |
| **9** | Sudan istifadənin ekoloji-hüquqi rejimi | 2 | 2 | 4 |
| **10** | Meşədən və heyvanlar aləmindən istifadənin ekoloji-hüquqi rejimi | 2 | 2 | 4 |
| **11** | Atmosfer havasının ekoloji-hüquqi mühafizəsi | 2 | 2 | 4 |
| **12** | Xüsusi mühafizə edilən təbiət obyektləri və komplekslərinin ekoloji-hüquqi mühafizəsi | 2 | 2 | 4 |

| | | | | |
|---|---|---|---|---|
| **13** | Xarici ölkələrin ekologiya hüququnun ümumi xarakteristikası | 2 | 2 | 4 |
| **14** | Beynəlxalq ekologiya hüququ | 2 | 2 | 4 |
| | **CƏMİ:** | **30** | **30** | **60** |

## Mövzular və onların məzmunu

### 1.Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının predmeti, metodu, sistemi və mənbələri

Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının anlayışı və predmeti. Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının hüquqi tənzimetmə metodları. Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının sistemi. Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının mənbələrinin anlayışı, təsnifatı, növləri və ümumi xarakteristikası[2],[3],[30],[19].

### 2. Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının prinsipləri

Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının prinsiplərinin anlayışı və növləri. Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının Ümumi hissəsinin prinsipləri. Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsaslarının Xüsusi hissəsinin prinsipləri[3],[20],[31],[19].

### 3.Müasir dövrdə cəmiyyətin və təbiətin qarşılıqlı təsir formaları və ekologiya sahəsində hüquq münasibətləri

Müasir dövrdə cəmiyyətin və təbiətin qarşılıqlı təsir formaları. Cəmiyyətin və təbiətin qarşılıqlı təsirinə dair ekoloji konsepsiyalar. Ekologiya sahəsində hüquq münasibətlərinin anlayışı, əlamətləri və növləri. Ekologiya sahəsində hüquq münasibətlərinin obyektləri və subyektləri. Ekoloji hüquq münasibətlərinin yaranması, dəyişməsi və xitam edilməsinin əsasları. Ekoloji hüquqi faktlar[3],[28],[2].

## 4.Təbiətdən istifadə və təbiət obyektləri üzərində mülkiyyət hüququ

Təbiət obyektləri üzərində mülkiyyət hüququnun anlayışı və əlamətləri. Təbiət obyektləri üzərində mülkiyyət formaları. Təbiət obyektləri üzərində mülkiyyət hüququnun subyektləri və obyektləri. Təbiət obyektləri üzərində mülkiyyət hüququnun məzmunu.

Təbiət obyektləri üzərində mülkiyyət hüququnun yaranması, dəyişilməsi və xitam edilməsi əsasları [2],[9],[29],[25].

## 5.İnsanın ekoloji-hüquqi statusu. Sağlam ətraf mühitdə yaşamaq hüququ

İnsanın ekoloji hüquqlarının anlayışı, əhəmiyyəti və növləri. İnsanın ekoloji hüquqlarının hüquqi tənzimlənməsi. İnsanın ekoloji hüquqlarının təminatları və müdafiəsi mexanizmləri. Təbiətin mühafizəsi üzrə öhdəliklər [1],[2],[3],[4].

## 6.Ekoloji-hüquqi məsuliyyət

Ekoloji-hüquqi məsuliyyətin anlayışı, əlamətləri və funksiyaları. Ekoloji- hüquqi məsuliyyətin yaranma əsasları.

Ekoloji hüquq pozuntularına görə intizam məsuliyyəti. Ekoloji hüquq pozuntularına görə maddi məsuliyyət. Ekoloji hüquq pozuntularına görə inzibati məsuliyyət. Ekoloji hüquq pozuntularına görə mülki-hüquqi məsuliyyət. Ekoloji hüquq pozuntularına görə cinayət məsuliyyəti. Xüsusi ekoloji-hüquqi məsuliyyət. Ekoloji-hüquqi məsuliyyətdən azad etmənin əsasları [3],[12],[13],[14],[15], [35],[29],[26].

### 7.Əhalinin və ərazinin ekoloji təhlükəsizliyinin hüquqi tənzimlənməsi

Ekoloji təhlükəsizlik anlayışı. Əhalinin və ərazinin ekoloji təhlükəsizliyinin hüquqi tənzimlənməsinin obyekti. Fövqəladə ekoloji vəziyyət. Ekoloji fəlakət. Fövqəladə ekoloji vəziyyət və ekoloji fəlakətlər haqqında qanunvericiliyin pozulmasına ğörə məsuliyyət. Fövqəladə ekoloji vəziyyət, ekoloji fəlakət və ekoloji risklərin hüquqi tənzimlənməsi vasitələri [3],[36],[37],[21],[5].

### 8.Torpaqdan və yerin təkindən istifadənin ekoloji-hüquqi rejimi

Torpağın ekoloji-hüquqi rejiminin xarakteristikası. Torpaq fondunun istifadəsi və mühafizəsinin dövlət tənzimlənməsi. Torpağa dair mülkiyyət, istifadə və icarə hüquqları. Torpaqların hüquqi mühafizəsi. Torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət.

Yerin təkinin ekoloji-hüquqi rejiminin xarakteristikası. Yerin təki fondunun istifadəsi və mühafizəsinin dövlət tənzimlənməsi. Yerin təkindən istifadə hüququ və onun növləri. Yerin təkinin hüquqi mühafizəsi. Yerin təki haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət [3],[6],[7],[22],[23],[33].

### 9.Sudan istifadənin ekoloji-hüquqi rejimi

Su obyektlərinin ekoloji-hüquqi rejiminin xarakteristikası. Su fondunun istifadəsi və mühafizəsinin dövlət tənzimlənməsi. Sudan istifadə hüququ və onun növləri. Suların hüquqi mühafizəsi. Su qanunvericiliyinin pozulmasına görə məsuliyyət[3],[9],[10],[11],[17],[24],[25].

## 10.Meşədən və heyvanlar aləmindən istifadənin ekoloji-hüquqi rejimi

Meşələrin ekoloji-hüquqi rejiminin xarakteristikası. Meşə fondunun istifadəsi və mühafizəsinin dövlət tənzimlənməsi. Meşədən istifadə hüququ və onun növləri. Meşələrin hüquqi mühafizəsi. Meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyət.

Heyvanlar aləminin ekoloji-hüquqi rejiminin xarakteristikası. Heyvanlar aləminin istifadəsi və mühafizəsinin dövlət tənzimlənməsi. Heyvanlar aləmindən istifadə hüququ və onun növləri. Heyvanlar aləminin hüquqi mühafizəsi. Heyvanlar aləmi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət[3],[6],[10],[11],[19],[16].

## 11.Atmosfer havasının ekoloji-hüquqi mühafizəsi

Atmosfer havasının ekoloji-hüquqi rejiminin xarakteristikası. Atmosfer havasının mühafizəsi üzrə hüquqi tədbirlər. Atmosfer havasının mühafizəsinə nəzarət. Atmosfer havası haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət[3],[8],[9],[7],[10],[11].

## 12.Xüsusi mühafizə edilən təbiət obyektləri və komplekslərinin ekoloji-hüquqi mühafizəsi

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərin anlayışı və ümumi xarakteristikası. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin növlərinin hüquqi rejimi. Milli parkların hüquqi rejimi. Təbiət parklarının hüquqi rejimi. Dövlət təbiət yasaqlıqlarının hüquqi rejimi. Zooloji parkların hüquqi rejimi. Nəbatət bağlarının hüquqi rejimi. Müalicə-sağlamlaşdırma yerlərinin və kurortların hüquqi rejimi[3],[11],[34],[37].

## 13.Xarici ölkələrin ekologiya hüququnun ümumi xarakteristikası

MDB ölkələrində ekologiya hüququnun inkişafı. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ekologiya hüququnun əsas xüsusiyyətləri. Avropa İttifaqının ekologiya hüququ[2], [21], [32].

## 14.Beynəlxalq ekologiya hüququ

Beynəlxalq ekologiya hüququnun anlayışı və predmeti. Beynəlxalq ekologiya hüququnun mənbələri. Beynəlxalq ekologiya hüququnun prinsipləri. Beynəlxalq ekologiya hüququnun subyektləri. Beynəlxalq ekoloji-hüquqi məsuliyyət[1],[4],[20],[21].

## İSTİFADƏ VƏ ТЮВСИЙЯ ОЛУНАН ЯДЯБИЙЙАТ

**Əsas**


1. Əliyev Ə.İ. İnsan hüquqları: Dərslik. Bakı: Hüquq ədəbiyyatı, 2013, 490 s.
2. Qənbərov D.M. Ekologiya hüququ. Ümumi hissə. Dərs vəsaiti. Bakı: "Sabah", 2016, 380s.
3. Hüseynov Ə.İ., Qəmbərov D.M. Ekologiya hüququ. Xüsusi hissə. Dərs vəsaiti. Bakı: "Sabah", 2016, 376s.
4. Hüseynov L.H. Beynəlxalq hüquq: Dərslik. Bakı: Qanun, 2012,408s.
5. Məhərrəmov A.A. Ekoloji təhlükəsizliyin beynəlxalq və dövlətdaxili hüquqi aspektləri (nəzəri və praktik problemləri) Bakı, 2010, 412s.
6. Торпаг Ганунлары Кцллийаты, I cild. Бакы: "Hüquq Yayın Evi", 2015,720s
7. Торпаг Ганунлары Кцллийаты, II cild. Бакы: "Hüquq Yayın Evi", 2015,792s.
8. Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu). II cild, Bakı:Qanun, 2006, s.521-534
9. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2013, 64s.
10. Azərbaycan Respublikasının ekoloji qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu). I cild. Bakı:Qanun, 2006,760s.
11. Azərbaycan Respublikasının ekoloji qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu). II cild. Bakı:Qanun, 2006, 884s.
12. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı:Qanun, 2016, 288s.
13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı: Qanun, 2016, 405s.

14. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı:Qanun, 2015, 768s.
15. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2015, 400c.
16. Azərbaycan Respublikasının Meşə Məcəlləsi / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, №6, maddə 496
17. Azərbaycan Respublikasının Su Məcəlləsi / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, №3, maddə 135
18. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. Bakı: Qanun, 2011, 64s.
19. Боголюбов С.А. Экологическое право: Учебник. М.: Юрайт, 2014, 448с.
20. Бекяшев К.А. Принципы и источники международного экологического права. М.: Проспект, 1999, 126с
21. Авраменко И.М. Международное экологическое право. М., 2005, 432с.

**Əlavə**

22. Abasquliyev A.C. Müasir dövrdə Azərbaycan Respublikasının torpaq qanunvericiliyinin inkişafı problemləri // Dövlət və hüquq, 1 buraxılış, Bakı, 1995, s.5-9
23. Axundzadə L.T. Понятие право собственности на землю /Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi, Bakı, 2009, №4, s. 218-225
24. Əhmədzadə Ə.S., Həşimov A.S. Meliorasiya və su təsərrüfatı sistemlərinin kadastrı. Bakı, 2006, 275s.

25. Əliyev F.Ş. Azərbaycan Respublikasının yeraltı suları ehtiyatlarından istifadə və geoekoloji problemlər. Bakı: Çaşıoğlu, 2000, 289s.
26. Əsədov A.Ə., Əliyev M.O. Ekoloji hüquq pozuntusunun anlayışı və səciyyəvi cəhətləri //Qanun, Bakı, 2012, №4, s.52-57
27. Əsədov A.Ə., Əliyev M.O. Müasir dövrdə ekoloji böhranın yaranma səbəbləri və ekoloji böhrandan çıxış yolları/Qanun, Bakı, 2011, №9, s.82-91
28. Əsədov A.Ə.,Əliyev M.O.Ekoloji hüquq münasibətlərinin bəzi səciyyəvi cəhətləri haqqında //Qanun,2012,№4,s.72-76
29. Hüseynov Ə.İ Hüquqi məsuliyyət anlayışı // Qanun,Bakı, 2012, № 01, s. 3-10
30. Quliyeva Z.N. Ekologiya hüququnun mənbələri / Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmusu. 10-cu buraxılış, Bakı, 2003,s.21-25
31. Manfred N. Introduction to the Human Rights Regime. Leiden / Boston, 2002, 236p.
32. Məhərrəmov A.A. Avropa İttifaqının ekologiya hüququ: Dərs vəsaiti. Bakı: Şirvannəşr, 2008,218s.
33. Məmmədov Q.S. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələlər. Bakı, 2003,327s.
34. Иванов А.Н., Чижова В.П. Охраняемые природные территории: Учебное пособие. М.: Изд-во Моск. ун-та, 2003,256с.
35. Касумов А.М., Алиев М.О. О некоторых особенностях понятия «экологическое правонарушение» в современном экологическом праве //Qanun, Bakı, 2015, №7, s.97-106
36. Лагунова А.И. Экологическая безопасность человека (международно-правовой аспект). Красноярск: КНЦ, 2003, 254с.

37. Alverson K.,Oldfield F.,Bradley R.S. (eds.)Past Global Changes and Their Significance for the Future.London.Pergonan Press,2000,287p